# Fındıqçılığın inkişafına dair maarifləndirici seminar

***"Gilan" Holdinq kənd təsərrüfatı qrupunun "Barlı bağlar" layihəsi çərçivəsində aprelin 6-da Qəbələdə "Mütərəqqi bağçılıq" mövzusuna həsr olunmuş maarifləndirici seminar keçirilib. Rayonun fındıqçılıqla məşğul olan fermerlərinin iştirak etdikləri seminarda bu sahənin inkişafı ilə bağlı həyata keçirilən layihələr və qarşıda duran vəzifələr ətraflı müzakirə olunub.***



Qafqaz Karvansaray Otelinin konfrans zalında təşkil olunan seminar müşavirədə holdinqin kənd təsərrüfatı qrupunun baş icraçı direktoru Eldar Cəfərov mövzu ilə əlaqədar mühazirə oxumuşdur.



Mövzu ətrafında RİH-in nümayəndəsi Ramil Qəribov, rayon kənd təsərrüfatı idarəsinin rəisi Rahib Əhmədov, "Gilan" Qəbələ Fındıq Zavodunun direktoru Anar İsmayılov, fındıqçılıq üzrə aqronom Sidqi Quliyev, "Gilan " Qəbələ Yeyinti Məhsulları İstehsalı ASC-nin sədr müavini Sadiq Qaragözov, Aqrotexservis ASC-nin icraçı direktoru Mustafa Əliyev və digər mütəxəssislər çıxış ediblər.

Müzakirələrdə məlumat verilib ki, rayonda kənd təsərrüfatının ixrac potensialı yüksək olan sahələrindən biri də fındıqçılıqdır və ölkəmizdə fındıq istehsalının böyük hissəsi məhz Qəbələ və ətraf rayonların payına düşür. Qeyd olunub ki, fındıq istehsalı bu rayonların əhalisinin əsas qazanc mənbələrindən biri hesab olunur və əhali arasında bu sahəyə maraq ildən-ilə artır.

Seminarda belə işgüzar tədbirlərin fermer və sahibkarlar üçün olduqca əhəmiyyətli olduğu vurğulanıb.

Sonra elmi-praktiki seminarda natiqlər fındıqçılığın inkişafı istiqamətində görülən işlər barədə məlumat veriblər. Bildirilib ki, fındıqçılığın, eləcə də kənd təsərrüfatının digər ənənəvi sahələrinin inkişaf etdirilməsi dövlətimizin başçısının diqqət mərkəzindədir və son vaxtlar bununla bağlı davamlı tədbirlər həyata keçirilir.

Seminarda fermerlərə və sahibkarlara fındıq ağaclarının vaxtında əkilməsi, aqrotexniki qaydalara uyğun becərilməsi və tədarükünə dair məsləhətlər verilib, onların suallar cavablandırılıb.

**Varis YAQUBOV,**
**Səhrab UMUYEV (foto)**
**"Qəbələ"**

# 2017-ci il ərzində Qəbələ rayonunun sosial-iqtisadi inkişafı haqqında məlumat

**(Əvvəli qəzetimizin ötən saylarında).**

**Mədəniyyət və turizm**

Keçən il rayonda 61-i dövlət əhəmiyyətli olmaqla 93 mədəniyyət abidəsi mühafizə edilmiş, 1 dövlət qoruğu, 1 mədəniyyət mərkəzi, 26 kitabxana, 1 xalq teatrı, 31 klub, 4 mədəniyyət və istirahət parkı, 3 muzey fəaliyyət göstərmişdir

Qəbələnin turizim üçün cəlbedici olan təbiətinin, füsunkar mənzərələrinin, tarixi abidələrinin, mədəniyyət ocaqlarının, müasir turizm infrastrukturunun və burada göstərilən yüksək səviyyəli xidmət işinin sayəsində xeyli turist gəlmişdir.

**Təhsil**

Rayonda 4 ibtidai, 11 ümumi orta və 53 tam orta məktəb fəaliyyət göstərir.

Hazırda məktəblərdə 17148 nəfər şagird təhsil alır. Onların təlim tərbiyəsi ilə 2454 müəllim məşğul olur. Şagirdlər təhsil ocaqlarında 645 kompyuterdən istifadə edir.

Rayondakı 22 məktəbəqədər uşaq müəssisəsində 780 nəfər uşaq vardır.

Peşə təhsili məktəbində isə 408 nəfər şagird 8 ixtisas üzrə təhsil alır. Gənclərin təlim tərbiyəsi ilə 15 nəfər müəllim və 13 nəfər istehsalat təlimi ustası məşğul olur.

**Səhiyyə**

Hazırda rayonda 51 tibb müəssisəsi–cəmi 330 çarpayılıq 6 xəstəxana, 36 tibb və feldşer-mama məntəqəsi, 9 ambulator poliklinika fəaliyyət göstərir.

Bu müəssisələrdə 178 həkim, 461 orta tibb işçisi çalışır. Əhalinin hər 10000 nəfərinə 18,8 həkim, 48,6 nəfər tibb işçisi düşür.

**Nəqliyyat və rabitə**

Məlum olduğu kimi avtonəqliyyatdan xalq təsərrüfatının bütün sahələrində-- yaxın və uzaq məsafələrə yük daşınmasında, əhaliyə sərnişin xidməti göstərilməsində və digər sahələrdə istifadə olunur.

2017-ci ildə avtomobil nəqliyyatı ilə 1260 min ton, əvvəlki illə müqayisədə 43 min və ya 3.5 faiz çox yük, 8911 min sərnişin daşınmışdır.

Həmin dövrdə rabitə müəssisəsi tərəfindən 1100 min manatlıq rabitə xidməti göstərilmiş, bu müəssisələrdə 102 nəfər işçi çalışmışdır. Onların orta aylıq nominal əmək haqqı 346 manat olmuşdur.

**İstehlak bazarı**

Keçən il rayonun istehlak bazarında əhaliyə 34490 min manatlıq pullu xidmət göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 181835 min manat təşkil etmiş, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 15.6 faiz və ya 24594 min manat çox olmuşdur.

Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində iaşə dövriyyəsinin xüsusi çəkisi isə 5.6 faiz və ya 10179 min manat təşkil etmişdir.

**Əmək haqqı, məşğulluq və işsizlik**

2017-cı ildə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqqı 292 manat olmuş və 2016-cı ilin həmin dövrü ilə müqayisədə 5,0 faiz artmışdır.

Yüksək orta aylıq əmək haqqı elektrik enerjisi, qaz istismarı, rabitə, maliyyə, dövlət idarəetməsi, sosial təminat, təhsil sahəsində çalışan işçilərə məxsus olmuşdur.

Rayonda ötən il 1280 nəfər işsiz vətəndaş qeydiyyata alınmış, 452 nəfər müxtəlif peşələr üzrə işə düzəldilmişdir.

2018-ci ilin 1 yanvar vəziyyətinə məşğul əhalinin sayı 46757 nəfər olmuşdur. Onların 11693 nəfəri muzdla işləyənlərdir.

Məşğul əhalinin 75 faizi və ya 35064 nəfəri muzdsuz işləyənlərdir. Muzdsuz işləyənlərin 31459 nəfəri və yaxud 84,0 faizi kəndli təsərrüfatlarda, 4,6 faizi yaxud 1723 nəfəri fiziki şəxslər, yerdə qalan 4270 nəfəri və ya 11,4 faizi isə digər sahələrdə çalışanlardır.

**Yeni açılmış iş yerləri**

2003-cü ilin oktyabr ayının 1-dən 2018-ci il yanvar ayının 1-nə dək rayonda 16706 yeni iş yeri açılmışdır ki, onun da 14658- i daimi iş yerləridir.

**Əhalinin sosial müdafiəsi**

2017-ci il ərzində 11542 pensiya işi üzrə 11807 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Onlardan 7748 nəfərə yaşa görə, 2977 nəfərə əlilliyə görə, 817 ailə üzrə 1082 nəfərə isə ailə başçısını itirməsinə görə pensiya verilmişdir. Pensiyaçılara təyin olunmuş aylıq ümumi pensiya məbləği 2019.09 min manat, 1 pensiya işi üzrə orta aylıq pensiya məbləği 174.93 manat təşkil etmişdir.

1974 ailənin 4476 üzvünə 4220.0 min manat sosial müavinət, 209 ailənin 1000 ailə üzvünə 1146.1 min manat ünvanlı sosial yardım ödənilmişdir.

**Ayaz İSGƏNDƏROV,**
**rayon statistika idarəsinin rəisi.**

# Bitkiçilikdə məhsuldarlığın artırılmasına gedən yol

***Ölkəmizin ərzaq təhlükəsizliyi bu gün dövlətin qarşısında duran ən vacib məsələlərdən biridir. Xüsusilə, ölkə əhalisinin yerli istehsal hesabına taxıl, dənli və paxlalı bitki məhsulları ilə təmin edilməsi aqrar sektorun qarşısında duran ən vacib məsələ hesab olunur.***

***Ölkə başçısının bu istiqamətdə göstərişlərinin yerinə yetirilməsi üçün dünya təcrübəsinin, qabaqcıl texnologiyaların öyrənilməsi və onların kənd təsərrüfatı sahəsində tətbiq edilməsi son illər öz müsbət nəticəsini verməkdədir. Bunu «Gilan» Holding "Aqrokompleks Qəbələ" MMC-nin timsalında çox aydın görmək mümkündür.***



Bu günlərdə "Aqrokompleks Qəbələ" MMC-də quruma məxsus buğda sahələrinin təqdimatına həsr olunan "Bitkiçilikdə məhsuldarlığın artırılmasına gedən yol" mövzusunda maarifləndirici seminar keçirilib.

Ətraf rayonların kənd təsərrüfatı idarələri əməkdaşlarının və sahibkarlıq subyektlərinin də qatıldığı seminarda Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin rəisi Camal Quliyev, Kənd Təsərrüfatı Nazirliyi Elmi Tədqiqat Əkinçilik İnstitutunun direktoru Cavanşir Təlai, Qəbələ Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Rahib Əhmədov, «Gilan» Holding "Aqrokompleks Qəbələ" MMC-nin direktoru Oqtay Nağıyev və "Evroxim" şirkətinin əməkdaşı Anton Andreyev çıxış edib.

Seminarın əhəmiyyətindən danışan məruzəçilər tərəfindən qeyd olunub ki, məhsuldarlığı daha da artırmaq üçün Rusiya Federasiyasının "Evroxim" şirkətinin KAS-32 (maye) gübrəsindən istifadə etməklə və onların təcrübəsini öyrənərək tətbiq etməklə Azərbaycan şəraitində məhsuldarlığı əlavə 30 faiz artırmaq mümkündür.

Seminarda iştirak edən fermerlər, mütəxəssislər və digərləri videoçarx vasitəsi ilə nümayiş etdirilən nəzəri biliklərin nəticələrini MMC-yə məxsus əkin sahələrində əyani şəkildə görüblər.

MMC-nin taxıl sahələrinə gələn seminar iştirakçılarına məlumat verilib ki, "Aqrokompleks Qəbələ" MMC 1700 hektar əkin sahəsindən istifadə edir. 2018-ci ilin məhsulu üçün 850 hektarda buğda, 220 hektarda arpa, 90 hektarda vələmir, 120 hektar sahədə çoxillik yonca bitkisi əkilib. 420 hektar sahədə isə qarğıdalı əkininə başlanılıb. Əkin sahələrinin hər hektarından 2017-ci ildə 35 sentner buğda, 30 sentner arpa, 28 sentner vələmir və 85 sentner qarğıdalı əldə edilib.

Bildirilib ki, aqrokompleksin mütəxəssisləri məhsuldarlığın artırılması üçün hər zaman yeni texnologiyalardan, qabaqcıl təcrübələrdən istifadə edirlər. Seminarda bu təcrübənin respublikanın digər bölgələrində, xüsusi ilə taxılçılıqla məşğul olan təsərrüfatlarda geniş öyrənilməsi və tətbiq edilməsi tövsiyə olunub.

Tədbir iştirakçılarının KAS-32 maye gübrəsi ilə bağlı sualları şirkətin nümayəndəsi tərəfindən cavablandırılıb.

**Səfa ASLANOV,**
**"Qəbələ"**

# 344 nəfər işlə təmin edilib

Bu ilin birinci rübündə Qəbələ Rayon Məşğulluq Mərkəzinə 825 nəfər müraciət edib ki, onlardan 113-ü



qadın, 177-i gəncdir.

Mərkəzdən müxbirimizə bildiriblər ki, müraciət edənlərin 344 nəfəri öz peşəsinə uyğun işlə təmin olunub.

İş üçün müraciət edən vətəndaşların 196 nəfəri meşə mühafizəsi və bərpası müəssisəsi, yaşıllaşdırma və kənd təsərrüfatı sahələrində, 14 nəfəri emal, 7 nəfəri təbii qaz, içməli su və elektrik təchizatı sahəsində, 60 nəfəri tikinti sahələrində, 50 nəfəri isə səhiyyə, təhsil, sosial xidmət, turizm, kommunal xidmət sahələrində, eləcə də otel, mağaza və restoranlarda işlə təmin edilib.

**"Qəbələ"**